| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | SPH 202, Nitq mədəniyyəti, 3 kredit 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Mənsurə Əhmədova | |
| | **E-mail:** | mansura.ahmadova@khazar.org | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | Yoxdur | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Dərsliklər:**<br>Nadir Abdullayev, Zabit Məmmədov, Nitq mədəniyyətinin əsasları. Bakı, 2008.<br>Nadir Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı, 2014.<br>Adil Babayev. Azərbaycan dilinin funksional üslubları. Bakı, 2001.<br>Vaqif Tapdıq oğlu Qurbanov – Nitq mədəniyyəti və üslubiyyat. Bakı, “Müəllim” nəşriyyatı, 2011.<br>Müasir Azərbaycan dilinin funksional üslubları, Bakı, 1998<br>Nabatəli Qulamoğlu (Pəlэngov), Müasir Azərbaycan dili punktuasiyasının problemləri, Bakı, 2019<br>**İnternet resursları:**<br>http://www.korpus.azerbaycandili.az/Vocabularies/Download/6022/Orfoqrafiya_15.03.2021.pdf<br>https://e-qanun.az/framework/47674<br>https://nk.gov.az/az/documents/1/ (Qərarlar)<br>https://nk.gov.az/az/documents/7/ (Sərəncamlar)<br>https://azertag.az/<br>https://klv.az/ | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | İnteraktiv müzakirə | + | |
| | Beyin fırtınası | + | |
| | Sual-cavab | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Fərdi təqdimat | | 10 |
| | Komanda işi | | 5+5 |
| | Final imtahanı | | 40 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | “Nitq mədəniyyəti” fənni nitq mədəniyyətinin artan rolu və ona yiyələnməyin yolları, ədəbi dilimizin şifahi və yazılı formaları, ədəbi dilin bədii, elmi, rəsmi-işgüzar, publisistik, epistolyar və məişət üslubları, fərdi üslub, müasir Azərbaycan dilinin üslubi-fonetik imkanları və vasitələri, leksik qrupların üslubi imkanları və üslubi məqsədəuyğunluq əsasında istifadə yolları, morfoloji vahidlərin məqsədəuyğun işlədilməsi nəticəsində morfoloji üslubi normalar, sintaktik vahidlərin uslubi imkanlarını əhatə edən dərslərdən ibarətdir. Kurs boyunca Azərbaycan dilinin müxtəlif üslublarına aid yazı nümunələri yazılır, fikrin yazılı və şifahi şəkildə ifadəsi zamanı ortaya çıxan yanlışlıqlar müzakirə edilir, hər mövzuya aid tapşırıqlar yerinə yetirilir. “Nitq mədəniyyəti” fənni tələbələrin nitq mədəniyyəti sahəsində əldə etdikləri bilik, bacarıq və vərdişlər sisteminə söykənən yeni praktik iş sistemidir. | | |

| | |
|---|---|
| **Kursun məqsədləri** | “Nitq mədəniyyəti” fənninin tədrisində məqsəd:<br><br>Dil daşıyıcısına sərbəst yazılı və şifahi dil bacarığını aşılamaq;<br>Mədəni nitqin keyfiyyətlərini bilmək;<br>Praktik tətbiqetmə vərdişlərini aşılanmaq;<br>Bədii, elmi, rəsmi-işgüzar, publisistik, epistolyar üsluba uyğun olaraq nitq qurmaq bacarıqlarını inkişaf etdirmək;<br>Azərbaycan dilinin quruluş xüsusiyyətlərini və ondan istifadə qaydalarını aşılamaq;<br>Yazılı və şifahi nitqin forma və növlərini mənimsətmək;<br>Yazılı nitqdə orfoqrafiya qaydalarına və durğu işarələrinə riayət etmək;<br>Şifahi nitqdə intonasiya qaydalarını bilmək və əməl etmək;<br>Nitq etiketləri haqqında məlumatlı olmaq.<br>Müxtəlif üslublarda yazılmış mətnləri ayırd edə bilmək, bu üslublarda mətn yaza bilmək. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Tədris nəticəsində tələbələr öyrənəcəklər:<br><br>Fənnin mahiyyətini, strategiyasını müəyyənləşdirəcək<br>Nitqin sifahi və yazılı formalarını, növlərini öyrənəcəklər.<br>Nitq normalarını yazılı və şifahi nitqə tətbiq edə biləcəklər.<br>Nitq etiketlərindən yerində və düzgün formada istifadə edə biləcəklər.<br>Funksional üslubları və fərdi üslubu fərqləndirəcəklər<br>Üslubları öyrənəcək, forma və xüsusiyyətləri haqqında məlumatlı olacaqlar.<br>İşgüzar yazışma və işgüzar etiket qaydalarına əməl edəcəklər<br>Rəsmi-kargüzarlıq sənədlərini tərtib etməyə, onların dil xüsusiyyətlərini müəyyənləşdirməyə, xüsusi və kargüzarlıq sənədlərini bir-birindən asanlıqla fərqləndirməyi biləcəklər |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq – 5 bal**<br>Tələbənin müzakirələrdə iştirakı, dərsə hazırlıq səviyyəsi, mövzularla əlaqəli verilən tapşırıqlar bu qiymətləndirməyə daxildir. Tələbə verilən tapşırığı yerinə yetirmədiyi halda bu bal ümumi qiymətləndirmədə nəzərə alınmır. Həftəlik tapşırıqlar fəallıq balı olaraq hesablanacaq.<br><br>**Davamiyyət – 5 bal**<br>Semestr ərzində tələbənin dərsdə iştirakına görə bal verilir. 2 qaib 1 balı kəsir. Universitet tərəfindən müəyyənləşdirilmiş limiti (icazəli və ya icazəsiz) istifadə edən tələbə davamiyyət balı almayacaqdır.<br><br>**Fərdi təqdimatlar – 10 bal**<br>Tələbə seçdiyi audio və ya vizual materialı (TEDx çıxışı, podkast, müsahibə, ictimai nitq və s.) üslubi, mədəni və dil baxımından təhlil edir, obyektiv tənqidini aparır və nəticələri strukturlaşdırılmış şəkildə təqdim edir.<br>**Məqsəd:**<br>Nitq mədəniyyəti, üslubi xüsusiyyətlər, mədəni kodlar və dil vasitələrinin analizini tətbiq etməklə tələbələrin təhlil və təqdimetmə bacarıqlarını inkişaf etdirmək.<br>**Tapşırığın tələbləri:**<br>• Nitqin üslubi xüsusiyyətlərini müəyyənləşdirmək və izah etmək.<br>• Nitqin mədəni aspektlərini (etik çərçivə, mədəni kodlar, ünsiyyət dəyərləri) təhlil etmək.<br>• Dil baxımından (leksik, qrammatik, fonetik, üslubi seçimlər) qiymətləndirmə aparmaq.<br>• Nitqin güclü və zəif tərəflərini tənqidi yanaşma ilə göstərmək.<br>• Təhlili yazılı və ya şifahi formada, aydın və strukturlaşdırılmış şəkildə təqdim etmək.<br>**Aralıq imtahanı - 30 bal** |

| | |
|---|---|
| | Tələbələrin biliyi tədbiqi və test tapşırıqları ilə yoxlanılacaq.<br><br>**Komanda işi – 5+5 bal**<br>Tələbələr kiçik qruplar şəklində "Nitq mədəniyyəti" mövzusunda verilmiş tapşırıqları yerinə yetirir, nəticələri sinifdə təqdim edirlər.<br>**Məqsəd:**<br>Tələbələrin kollektiv iş bacarıqlarını, tədqiqat aparmaq qabiliyyətini, yaradıcı təqdimat vərdişlərini və problem həll etmə bacarıqlarını inkişaf etdirmək.<br>**Tapşırığın tələbləri:**<br>• Qrup daxilində əmək bölgüsü aparmaq və komanda şəklində işləmək.<br>• "Nitq mədəniyyəti" mövzusunda verilmiş tapşırığı müzakirə edib nəticəyə gəlmək.<br>• Mövzunu tədqiqat əsasında əsaslandırmaq.<br>• Tapşırığın nəticələrini sinifdə təqdim etmək.<br>• Təqdimatda aydınlıq, məntiq və yaradıcı yanaşmanı nümayiş etdirmək.<br><br>**Final imtahanı - 40 bal**<br>İmtahan sualları həm tədbiqi, həm də test tapşırıqlarından ibarət olacaq.<br><br>**İmtahan haqqında**<br><br>1.İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br><br>2. Aralıq (30 bal) və Final (40 bal) imtahanlarında həm açıq, həm qapalı, işgüzar sənədlərin hazırlanması ilə əlaqəli sual formalarından istifadə ediləcəkdir.<br><br>3.Final imtahanında suallar aralıq imtahanından sonra keçilmiş materialların əsasında tərtib olunur. |

**Cədvəl**

| | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | | Fənnin tədrisi, məqsəd və vəzifələri. Nitq mədəniyyəti anlayışı<br><br>Azərbaycan dili və əlifbası haqqında məlumat | N.Abdullayev, 2015:4-9;<br>A.Babayev, 2017: 10-13;14-25<br>Azərbaycan dili haqqında verilmiş qanun, fərman və sərəncamların öyrənilməsi |
| 2 | | Ritorikanın qısa tarixi<br><br>Ritorikanın digər elmlərlə əlaqəsi | N.Abdullayev, 10-31<br>A.Babayev, 92-109<br><br>Natiqlərlə tanışlıq |
| 3 | | Nitq mədəniyyətinin münasibətlərdə rolu.<br><br>Mədəni nitqə verilən tələblər | N.Abdullayev,34-51;53-60<br><br>A.Babayev, 125-136<br><br>Natiqlərdən birinin nitqinin analizi |

| | | | |
|---|---|---|---|
| 4 | | Nitq mədəniyyəti və ədəbi dilin normalar sistemi<br><br>Fonetik, leksik, üslubi və qrammatik normalar | N. Abdullayev,124-156 ;<br>141-148<br>Mənt üzərində iş |
| 5 | | Punktuasiya<br><br>Şifahi nitqdə intonasiya, vurğu və fasilənin rolu | N. Abdullayev, 62-85; 148-169<br>Səsli mətnlərin dinlənilməsi |
| 6 | | Ünsiyyət mədəniyyəti. Müraciət, salamlaşma, davranış və nitq etiketləri<br><br>Təqdimatların hazırlıq mərhələləri və natiqə verilən tələblər. | N. Abdullayev, 88-102;<br>Abdullayev, 2008: 213-252<br>Cəmiyyətdə nitq etiketlərinən necə istifadə edilir? Müşahidə üsulu |
| 7 | | Nitqin növləri və formaları<br><br>Dialoji nitq və onun növləri. Monoloji nitq və onun növləri | N.Abdullayev,102-119<br><br>Monoloq hazırlamaq |
| 8 | | **Aralıq imtahanı**<br><br>Yazılı və şifahi nitq | N.Abdullayev, 107-113<br><br>Mətn üzərində iş |
| 9 | | Fərdi tapşırıqların təqdimatı | |
| 10 | | Azərbaycan ədəbi dilinin funksional üslubları. Ədəbi danışıq-məişət üslubu<br><br>Bədii üslub. Nitqdə bədii təsvir və ifadə vasitələrinin rolu | Mühazirə<br>N.Abdullayev,194-213; 170-190<br>Q.Mustafayev,21-31<br><br>Bədii əsərlərdən bədii təsvir və ifadə vasitələrinin seçilməsi |
| 11 | | Elmi üslub. Elmi mətnlərin tərtibi<br><br>Publisistik üslub. İctimai məişət natiqliyi. Ekran nitqi | Q.Mustafayev, 32-37.38-41<br><br>Müasir Azərbaycan dilinin funksional üslubları. Bakı–2001, 11-26<br><br>N.Abdullayev, 116-119<br>Elmi məqalə üzrə tezis hazırlanması və açar sözlərin seçilməsi, Natiqlərin nitqinin analizi |
| 12 | | Epistolyar üslub. Məktub yazmağın prinsipləri<br><br>Üslubların qarşılıqlı əlaqəsi | Q.Mustafayev, 54-56,60-66<br><br>Müasir Azərbaycan dilinin funksional üslubları. Bakı–2001, 104-117<br><br>Məktub yazmaq |

| | | | |
|---|---|---|---|
| 13 | | Rəsmi işgüzar üslub. Rəsmi və işgüzar sənədlər<br><br>Əməli yazı nümunələri. Hesabat, arayış, ərizə, izahat və s. | A.Babayev, 494,508,523,526,495<br>Müasir Azərbaycan dilinin funksional üslubları. Bakı–2001, 57-96<br>Hesabat, izahat , ərizə yazmaq |
| 14 | | Komanda işlərinin təqdimatı | |
| 15 | | Keçirilmişlərin təkrarı, tədris nəticələrin analizi<br>Yekun | |
| | | **Final imtahanı** | |